*Əl işdən soyumaz, ürək arzudan...*



# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

№ 10-11 (7415-7416) ✲ 1933-cü ildən nəşr olunur ✲ Cümə, 24 fevral 2017-ci il. ✲ Qiyməti 40 qəpik

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Prezident İlham Əliyev fevralın 22-də Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Berat Albayrak ilə görüşüb.

Berat Albayrak Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və xanımı Əminə Ərdoğanın Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunması münasibətilə Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya təbriklərini və salamlarını çatdırıb.

* * *

Prezident İlham Əliyev fevralın 22-də Yaponiyanın iqtisadiyyat, ticarət və sənaye üzrə dövlət naziri Yoşifumi Matsumuranın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan ilə Yaponiya arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən qeyri-neft sektoru, sənaye, kənd təsərrüfatı, səhiyyə, insan resursları, yeni yaradılmış sənaye zonalarına texnologiyaların gətirilməsi, sərmayə qoyuluşu və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Prezident İlham Əliyev fevralın 20-də Qətər Dövlətinin təhsil və ali təhsil naziri Məhəmməd bin Əbdülvahid Əl-Həmmadini qəbul edib.

Görüşdə dövlət başçısı Azərbaycan ilə Qətər arasında çox yaxın tərəfdaşlıq əlaqələrinin mövcud olduğunu bildirib. Bu əlaqələrin mümkün qədər çox sahələri əhatə etməsinin vacibliyini qeyd edib. Prezident İlham Əliyev bu yaxınlarda Qətər Dövlətinin xarici işlər nazirini qəbul etməsini, özünün Qətərə planlaşdırılmış səfərinin və Qətər Dövlətinin təhsil və ali təhsil nazirinin Bakıya gəlməsinin əhəmiyyətini qeyd edərək, qarşılıqlı səfərlərin ölkələrimiz arasında mövcud tərəfdaşlıq əlaqələrinin yaxşı göstəricisi olduğunu vurğulamışdır.

* * *

Prezident İlham Əliyev fevralın 18-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Avrasiyada əməkdaşlıq və problemlər məsələlərinə həsr olunan panel-müzakirədə iştirak edib.

Tədbirdə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da iştirak ediblər.

* * *

Prezident İlham Əliyevin fevralın 18-də Münxendə BMT-nin baş katibi Antonio Quterreş ilə görüşü olub.

Görüşdə Azərbaycan Prezidenti İlham Əliyev Antonio Quterreşi BMT-nin baş katibi seçilməsi münasibətilə bir daha təbrik edib. Dövlət başçısı onunla Bakıda keçirdiyi görüşləri məmnunluqla xatırlayıb.

BMT-nin baş katibi Antonio Quterreş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində əsas şərtlərin nədən ibarət olması ilə maraqlanmışdır.

* * *

Fevralın 18-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırımın görüşü olub.

Görüşdə ölkələrimiz arasında dostluq və tərəfdaşlıq münasibətlərinin inkişaf etdiyi və bunun məmnunluq doğurduğu bildirilib. Azərbaycan ilə Türkiyənin Bakı-Tbilisi-Qars, Cənub Qaz Dəhlizi, TANAP və digər böyük layihələri uğurla həyata keçirdikləri, bu sahədə əməkdaşlığın davam etdirildiyi qeyd olunub.

Türkiyənin Baş naziri Binəli Yıldırım ölkəsində gedən proseslər və referenduma hazırlıqdan danışıb.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi də aparılıb.

* * *

Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaninin görüşü olub.

Görüşdə Azərbaycan ilə Əfqanıstan arasında əlaqələrin uğurla inkişaf edərək müxtəlif sahələri əhatə etdiyi, ikitərəfli münasibətlərimizin daha da genişlənməsi üçün imkanların olduğu bildirilib. Pambıqçılıq, sement istehsalı, səhiyyə, nəqliyyat sahələrində əlaqələrin inkişafı baxımından yaxşı potensialın olduğu vurğulanıb. Azərbaycanın brendi olan "ASAN xidmət"in təcrübəsinin Əfqanıstanda yayılması məsələləri müzakirə edilib. Münasibətlərimizin inkişafında qarşılıqlı səfərlərin intensivləşdirilməsinin vacibliyi qeyd olunub.

## M. A. Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*



Azərbaycan Respublikası Konstitusiyasının $103^1$-ci maddəsinin I hissəsini rəhbər tutaraq **qərara alıram:**

Mehriban Arif qızı Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**

*Bakı şəhəri,*
*21 fevral 2017-ci il.*

## Birinci vitse-prezident Mehriban Əliyeva: Azərbaycana layiqincə xidmət etməyə çalışacağam

***Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam.***

Bu fikri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva fevralın 21-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında bildirib.

Ona göstərdiyi yüksək etimada görə Azərbaycan Prezidentinə dərin minnətdarlığını bildirən Birinci vitse-prezident deyib: "Bu vəzifəyə təyin olunmaqla öhdəmə düşən məsuliyyətin ciddiliyini tam şəkildə dərk edirəm və inanıram ki, cənab Prezident, Sizin və mənə inanan bütün insanların etimadını doğrultmağı bacaracağam".



Mehriban Əliyeva vurğulayıb ki, gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar. "Mən sizi əmin edirəm ki, gələcək fəaliyyətimi məhz bu prinsiplər əsasında qurmağa çalışacağam", - deyə Birinci vitse-prezident əlavə edib.

**AZƏRTAC**.

## "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin otuz beşinci cildi çapdan çıxıb

***Çoxcildliyin bu nəşrinə daxil olan materiallar 2009-cu ilin fevralından aprelinədək olan dövrü əhatə edir.***




*Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin bu cildinə dövlətimizin başçısının Azərbaycana səfər etmiş Ukrayna Prezidenti ilə görüşünə, Türkiyə, İran, Gürcüstan, Rusiya və digər ölkələrin, BMT, ISESCO və ATƏT-in, xarici şirkətlərin yüksək vəzifəli şəxslərini qəbul etməsinə dair materiallar, UNESCO-nun Baş direktoru Koişiro Matsuuranın iştirakı ilə Bakıda Beynəlxalq Muğam Mərkəzində "Muğam aləmi" beynəlxalq festivalının, Müasir İncəsənət Muzeyinin açılışındakı nitqləri daxil edilib.*

Prezident İlham Əliyevin Küveyt Dövlətinə, Yunanıstana, İran İslam Respublikasına, Rusiya Federasiyasına səfərləri zamanı bu ölkələrin dövlət və hökumət başçıları ilə ikitərəfli əlaqələrin inkişafına dair görüş və danışıqları, Rusiyanın "Vesti" kanalına və "İTAR-TASS" agentliyinə müsahibələri də nəşrin bu cildində yer alıb. Nəşrin 35-ci cildində Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsi ilə əlaqədar Bərdə, Yevlax rayonlarına, Mingəçevir şəhərinə səfəri zamanı bölgənin sosial-iqtisadi və mədəni cəhətdən inkişafına və qarşıda duran vəzifələrə həsr olunmuş çıxışları yer alıb. Kitabda, həmçinin "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)" icrasının yekunlarına həsr olunmuş konfransda ölkə başçısının giriş və yekun nitqləri, Bakıda M. V. Lomonosov adına Moskva Dövlət Universitetinin filialının rəsmi açılışında iştirakına dair materiallar, eləcə də müxtəlif məktubları, bəyanatları verilib.